

# MƏKTƏBLƏRDƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ APARILMASINA DAİR TƏLİMAT (2023)



Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# MÜNDƏRİCAT


**Bölmə 1: Giriş**

1.1 Məktəb özünüqiymətləndirməsi haqqında ümumi məlumat

1.2 Təlimatın məqsədi

1.3 Təlimat kim üçün nəzərdə tutulub?

**Bölmə 2: Məktəb Özünüqiymətləndirmə Prosesi**

2.1 Məktəb özünüqiymətləndirməsi nədir?

2.2 Məktəb özünüqiymətləndirməsi və xarici keyfiyyət monitorinqi

2.3 Məktəb özünüqiymətləndirməsi və məktəbin inkişaf planı

2.4 Məktəb özünüqiymətləndirmə prosesi

**Bölmə 3: TKTA Məktəblərdə Keyfiyyət Monitorinqinə Dair Çərçivə Sənədi**

3.1 TKTA Məktəblərdə Keyfiyyət Monitorinqinə Dair Çərçivə Sənədi

3.2 Alt meyarların təsvirləri

**Bölmə 4: Məktəb Özünüqiymətləndirmə Metodologiyası**

4.1 Giriş

4.2 Qiymətləndirmə metodları və alətləri

4.3 Dərs müşahidə forması (DMF)

4.4 Dərs müşahidə qeydiyyatı excel cədvəli

4.5 9-cu sinif buraxılış imtahan nəticələrinin təhlil cədvəli

4.6 Məktəbdaxili imtahan nəticələrinin təhlil cədvəli

4.7 Fənn xülasə forması (FXF)

4.8 Ümumi müşahidə forması (ÜMF)

4.9 Fokus qrup müzakirələr

4.10 Müsahibələr

4.11 Anket sorğular

**Bölmə 5: Məktəb Özünüqiymətləndirmə Hesabatı**

5.1 Məktəb özünüqiymətləndirmə hesabatı

5.2 Məktəb inkişaf planı (MİP)

# Bölmə 1: GİRİŞ

## 1.1 Məktəb özünüqiymətləndirməsi haqqında ümumi məlumat

Məktəb özünüqiymətləndirməsi məktəb inkişafının tərkib hissəsi olan, diaqnostik xarakter daşıyan davamlı bir prosesdir. Bu proses məktəbin müxtəlif aspektlərini sistematik olaraq qiymətləndirərək onun güclü və zəif tərəflərini müəyyən edir. Bu diaqnostik yanaşma məktəblərə prioritetləri və məqsədləri müəyyənləşdirməyə imkan verir, eyni zamanda strateji qərarların qəbul edilməsində və inkişaf planının hazırlanmasında əhəmiyyətli rol oynayır. Davamlı monitorinq prosesi görülən işlərin ehtiyaclara uyğun olub-olmadığını müəyyənləşdirir, irəliləyişi ölçür və nailiyyətləri dəyərləndirir. Bundan əlavə, qiymətləndirmə prosesi peşəkar inkişafı təşviq edir, resurslardan istifadəni optimallaşdırır və maraqlı tərəflərin prosesə fəal cəlb olunmasını təmin edir. O, özünü refleksiya və hesabatlılıq mədəniyyətini formalaşdırır, davamlı inkişafa sövq edir və şagird nailiyyətlərinin təhsil standartlarına cavab verməsinə şərait yaradır.

## 1.2 Təlimatın məqsədi

Bu təlimat Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Məktəblərdə Keyfiyyət Monitorinqi Layihəsi" ni həyata keçirən komanda tərəfindən hazırlanmışdır.

Təlimat davamlı özünüqiymətləndirmə prosesində məktəblərə dəstək olmaq üçün nəzərdə tutulmuşdur. Təlimat məktəbin şagird nailiyyətləri, öyrətmə, qiymətləndirmə, dəstəkləyici mühitin yaradılması, liderlik və idarəetmə kimi əsas sahələr üzrə fəaliyyətlərinin dəyərləndirilməsinə, məktəb heyəti arasında peşəkar dialoq və müzakirələri təşviqinə, məktəbin güclü və inkişafa ehtiyacı olan tərəflərinin müəyyənləşdirilməsinə xidmət edir.

## 1.3 Təlimat kim üçün nəzərdə tutulub?

Bu təlimat təhsilalanların keyfiyyətli təhsil almaları üçün məsuliyyət daşıyan hər kəsə aiddir. İdarəetmə heyətinin üzvləri (direktor, təlim-tərbiyə işləri üzrə müavin, psixoloq, sinifənxaric və məktəbdənkənar işlər üzrə təşkilatçı, UBR və s.) və müəllimlər məktəbdə tətbiq etdikləri təcrübənin effektivliyini yoxlamaq üçün bu təlimatdan istifadə edə bilərlər. Bununla yanaşı, təlimat idarəetmə və pedaqoji heyət üzvlərinin məktəbin inkişafa ehtiyacı olan spesifik sahələrinə diqqət yetirmələrinə imkan verir. Özünüqiymətləndirmə prosesində fəal iştirak etmək üçün məktəb icmasının digər əsas üzvləri şagird və valideynlər də bu sənədlə tanış ola bilərlər.

# Bölmə 2: Məktəb Özünüqiymətləndirmə Prosesi

## 2.1 Məktəb özünüqiymətləndirməsi nədir?

Məktəb özünüqiymətləndirməsi məktəbin müəyyən edilmiş parametr və standartlara uyğun nə dərəcədə keyfiyyətli və effektiv fəaliyyət göstərdiyini müəyyənləşdirən və əməkdaşlıq zəminində aparılan məktəbdaxili keyfiyyət monitorinqi prosesidir. Özünüqiymətləndirmə məktəbdən öz fəaliyyətinin müxtəlif aspektləri ilə bağlı aşağıdakı əsas suallara cavab verməyi tələb edir:

- Gördüyümüz işlər bizi hədəflərimizə doğru aparırmı?
- Fəaliyyətimiz nə dərəcədə effektivdir?
- Bunu necə müəyyənləşdirmək olar?
- Məktəbimizin güclü tərəfləri hansılardır?
- Məktəbimizin təkmilləşməyə ehtiyacı olan tərəfləri hansılardır?
- Biz necə təkmilləşə bilərik?
- İnkişaf etmək üçün növbəti hədəflərimiz nələr olmalıdır?

Yuxarıdakı sualları cavablandırmaq üçün özünüqiymətləndirmə zamanı idarəetmə və pedaqoji heyət üzləri, habelə şagirdlər və valideynlər məktəbin refleksiya xarakterli fəaliyyətlərinə cəlb olunurlar. Bu prosesdə dəlil (data) əsaslı yanaşma tətbiq olunur. Müxtəlif mənbələrdən məlumat toplanır və müvafiq hökm çıxarılır.

## 2.2 Məktəb özünüqiymətləndirməsi və xarici keyfiyyət monitorinqi

Məktəbin özünüqiymətləndirməsi və xarici qiymətləndirmə bir-birini tamamlayan proseslərdir və hər ikisi məktəbi təkmilləşdirməyə yönəlmişdir. Məktəb özünüqiymətləndirməsi məktəbin müxtəlif sahələri üzrə prioritetlərini və müvafiq həll yollarını müəyyənləşdirmək üçün bir vasitə sayılır. Xarici qiymətləndirmələr isə məktəbin özünüqiymətləndirməsi zamanı müəyyən edilmiş prioritetləri nəzərə alır və məktəbin bu istiqamətdə gördüyü işlərin effektivliyini dəyərləndirir.

## 2.3 Məktəb özünüqiymətləndirməsi və məktəb inkişaf planı

Məktəb özünüqiymətləndirməsi və məktəb inkişaf planı təhsildə keyfiyyətin yüksəldilməsinə yönəlmiş davamlı dövri bir prosesin bir-biri ilə sıx əlaqəli iki komponentidir. Məktəb özünüqiymətləndirməsi inkişaf planının hazırlanmasına zəmin yaradır. Özünüqiymətləndirmədən əldə edilən məlumatlara istinad edərək müəllimlər və idarəçilər təhsilalanların nailiyyətlərinin artırılması üçün prioritetləri və spesifik hədəfləri müəyyən edirlər. İnkişaf planının həyata keçirilməsi zamanı müəyyən fəaliyyətlərin effektivliyinin dəyərləndirilməsinə ehtiyac olur ki, bu da

öz növbəsində inkişaf planında dəyişikliklər edilməsinə səbəb olur. Göründüyü kimi, məktəbin özünüqiymətləndirməsi ilə məktəbin inkişaf planı arasında əlaqə dövri xarakter daşıyır. Bu təkrarlanan proses təhsilalanların dəyişən ehtiyaclarını qarşılamaq üçün məktəbdə davamlı inkişaf mədəniyyətini dəstəkləyir.

## 2.4 Məktəb özünüqiymətləndirmə prosesi

Məktəb özünüqiymətləndirmə prosesi 6 mərhələdən ibarətdir və dövri xarakter daşıyır. Prosesin ümumi mənzərəsi aşağıdakı diaqramda öz əksini tapmışdır. Proses boyu idarəçilər və müəllimlər məlumatları təhlil edir, mövcud vəziyyəti dəyərləndirir və müvafiq addımlar atırlar.

**Diaqram: 6 mərhələli məktəb özünüqiymətləndirmə prosesi**




## 1-Cİ MƏRHƏLƏ: HAZIRLIQ

Bu mərhələdə idarəetmə heyəti bütün məktəb heyətinə özünüqiymətləndirmənin əhəmiyyəti, prosesi və təşkili haqqında ümumi məlumat verir və sonra aşağıdakı istiqamətdə fəaliyyətləri icra edir:

- özünüqiymətləndirmə komandası yaratmaq
- komanda üzvlərinin hər birinin öhdəlikləri və məsuliyyətlərini müəyyənləşdirmək
- dəlillərin toplanması üçün vaxt intervalını, son tarixi, iclas (görüş) tarixlərini, məsul şəxsləri təyin etmək

- nəticələrin təhlili və dəyərləndirilməsi üçün vaxt intervalını, son tarixi, iclas (görüş) tarixlərini, məsul şəxsləri təyin etmək
- özünüqiymətləndirmə hesabatı üçün vaxt intervalını, son tarixi, iclas tarixini, məsul şəxsləri təyin etmək
- Məktəbin inkişaf planı (MİP) və icrası üçün vaxt intervalını, son tarixi, iclas tarixini, məsul şəxsləri təyin etmək

## 2-Cİ MƏRHƏLƏ: DƏLİLLƏRİN TOPLANMASI

Bu mərhələdə məktəbin TKTA Çərçivə sənədinin 4 əsas sahəsinə görə harada olduğunu müəyyənləşdirmək üçün dəlillər toplanır. Müəllim, şagird, valideyn, idarəetmə daxil olmaqla müxtəlif mənbələrdən kəmiyyət və keyfiyyət əsaslı dəlillər təhlil olunur. Dəlil nümunələri aşağıdakılardır:

- Şagirdlərin təlim nəticələri üzrə məlumat: 9-cu sinif buraxılış imtahan nəticələri, 4-cü sinif monitorinq nəticələri, məktəbdaxili qiymətləndirmə nəticələri (monitorinq, DQ, FQ, BSQ, KSQ) və s.
- Şagirdlərin davamiyyət və punktuallıq üzrə göstəricilər
- Dərs müşahidələrinin qeydiyyatı
- Sorğu nəticələri (valideyn, şagird, pedaqoji və texniki heyət)
- Müsahibə nəticələri
- Maddi-texniki və tədris bazasının vəziyyəti haqqında məlumat və s.

## 3-CÜ MƏRHƏLƏ: TƏHLİL VƏ DƏYƏRLƏNDİRMƏ

3-cü addım məlumatların təhlili və təhlil edilmiş məlumatlara əsaslanaraq nəticələr çıxarılmasıdır. Məktəblər qiymətləndirilən sahələrdə güclü tərəfləri müəyyən etməklə yanaşı, təkmilləşdirilməsi üçün prioritetləşdirilməli olan sahələri də dəqiqləşdirməlidirlər. Mümkün qədər obyektiv olmaq üçün onlar TKTA Çərçivə sənədinin meyarlarına və qiymətləndirmə səviyyələrinə istinad edərək görülən işlərin keyfiyyətini dəyərləndirməlidirlər. Çərçivə sənədindəki meyarların təsvirləri məktəbin müxtəlif sahələr üzrə təkmilləşməyə ehtiyacı olan təcrübələrini inkişaf etdirməsinə dəstək olur. Çərçivə sənədi haqqında daha geniş məlumat təlimatın 4-cü bölməsindədir.

## 4-CÜ MƏRHƏLƏ: ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ HESABATININ VƏ MİP-İN YAZILMASI

Bu mərhələdə təhlillər əsasında özünüqiymətləndirmə hesabatının yazılması və hesabatın məktəb

heyəti ilə paylaşılması nəzərdə tutulur. Hesabat TKTA Çərçivə sənədinin məzmununa uyğun olaraq məktəbin 4 əsas sahəsi üzrə yazılmalıdır. Məktəb fəaliyyətinin güclü və təkmilləşməyə ehtiyacı olan tərəfləri hesabatda öz əksini tapmalıdır. Hesabat forması monitoirinq.edu.az saytında yerləşdirilib. 4-cü mərhələnin 2-ci hissəsində MİP yazılır və bu prosesdə spesifik hədəflərin qoyulması başlanğıc nöqtədir. Özünüqiymətləndirmədən əldə olunan təhlillər əsasında məktəb spesifik, ölçülə bilən, əldə edilə bilən, real və müəyyən zaman çərçivəsində reallaşdırılması mümkün olan (SMART) hədəfləri müəyyənləşdirməlidir. Bu, icra olunacaq fəaliyyətlərin müəyyən edilməsində mühüm addımdır. Bu mərhələnin yekun hissəsində məktəblər özünüqiymətləndirmə hesabatının və inkişaf planının xülasəsini bütün məktəb icması ilə paylaşır.

## 5-Cİ MƏRHƏLƏ: MİP-İN İCRASI

Bu, prosesin əsas mərhələsidir. Yalnız inkişaf planında göstərilən tədbirlər həyata keçirildikdə məktəbin fəaliyyəti yaxşılaşa bilər. Məktəb səviyyəsində hamı bu işdə fəal iştirak etməli və bir fərd olaraq məsuliyyətini anlamalıdır. İnkişaf planında nəzərdə tutulan işlər gündəlik fəaliyyətlərin bir hissəsi olmalıdır.

## 6-CI MƏRHƏLƏ: MİP-İN İCRASINA NƏZARƏT VƏ QİYMƏTLƏNDİRMƏ

Icra olunan fəaliyyətlərin effektivliyini qiymətləndirmək üçün onlara nəzarət edilməlidir. Bunu nəzərdən keçirərkən aşağıdakı sualları vermək faydalı olar:

- Müəllimlərin fəaliyyətlərində dəyişiklik müşahidə olunurmu? Hansı səviyyədə?
- Şagirdlərin fəaliyyətlərində dəyişiklik müşahidə olunurmu? Hansı səviyyədə?
- Öyrətmənin keyfiyyəti şagird nailiyyətlərinə necə təsir edir?
- Şagird davranışında dəyişiklik müşahidə olunurmu? Hansı səviyyədə?
- Şagird davranışındakı dəyişiklik şagird nailiyyətlərinə necə təsir edir? və s.

Nəzarəti səmərəli təşkil etmək üçün məktəblər aşağıdakılarla bağlı qərar verməlidir:

- Monitorinq necə baş verəcək?
- Monitorinq üçün kim cavabdeh olacaq?
- İrəliləyiş necə müəyyənləşdiriləcək və hesabat necə veriləcək?
- İrəliləyiş barədə nə vaxt və kimə məlumat veriləcək?
- Hədəflər və fəaliyyətlər realdırmı və ya dəyişdirilməsinə ehtiyac varmı?

Planın icrasına davamlı və sistemli nəzarət edilməsində prosesə rəhbərlik edənlərin, habelə bütün müəllimlərin rolu mühümdür. Bununla əlaqədar olaraq, nəzərdə tutulan irəliləyişin baş verib-vermədiyini yoxlamaq üçün müəyyən edilmiş intervallarda məlumatların toplanması və istifadəsi zəruridir. Məktəbin inkişaf planının həyata keçirilməsi sonda məktəbin özünüqiymətləndirməsinin yeni dövrünə gətirib çıxarır.

# BÖLMƏ 3: TKTA MƏKTƏBLƏRDƏ KEYFİYYƏT MONİTORİNQİNƏ DAİR ÇƏRÇİVƏ SƏNƏDİ

## 3.1TKTA Məktəblərdə Keyfiyyət Monitorinqinə Dair Çərçivə Sənədi

Bu sənəd dövlətin təhsil siyasətinə, Azərbaycan Respublikasında ümümi təhsilin dövlət standartlarının tələblərinə və gözləntilərinə, qabaqcıl təcrübəyə və keyfiyyətli təhsilin müasir dünya standartlarına uyğun işlənib hazırlanmışdır. Eyni zamanda, bu sənəd məktəblərdə təhsilin keyfiyyətini təmin etmək məqsədilə keyfiyyət meyarları və göstəricilərini özündə əks etdirən baza sənədidir.

*Çərçivə sənədinin əhəmiyyəti:*

- məktəblərdə həm daxili, həm də xarici keyfiyyət monitorinqi prosesini dəstəkləmək və istiqamətləndirmək
- məktəblərin eyni keyfiyyət meyarları əsasında etibarlı və effektiv monitorinqini təmin etmək
- tədrisin keyfiyyətini yüksəldərək şagird nailiyyətlərinin yaxşılaşmasını təmin etmək

*Çərçivə sənədinin strukturu:*

Çərçivə sənədi sahələr (4 sahə), meyarlar (10 meyar), alt meyarlar (36 alt meyar) və onların təsvirlərindən ibarətdir. Sahə və meyarların adları Cədvəl 3.1-də verilib. Sahələrin qiymətləndirilməsində aşağıdakı kəmiyyət göstəricilərindən və qiymətləndirmə səviyyələrindən istifadə olunur.

*Kəmiyyət göstəriciləri:*

**Böyük əksəriyyət**-[90-100%] **Əksəriyyət**-[70%-90%) **Çox**-[50-70%)

**Bəzi**-[30-50%) **Az**-[10-30%) **Çox az**-[0-10%)

| **Qiymətləndirmə səviyyələri** | **İzahı** |
|---|---|
| 5. Əla | Keyfiyyət göstəriciləri ümumi təhsilin dövlət standartları və proqramlarından irəli gələn tələbləri yüksək səviyyədə ödəyir. |
| 4. Yaxşı | Keyfiyyət göstəriciləri ümumi təhsilin dövlət standartları və proqramlarından irəli gələn tələblərə cavab verir. |
| 3. Kafi | Keyfiyyət göstəriciləri ümumi təhsilin dövlət standartları və proqramlarından irəli gələn tələbləri minimum səviyyədə ödəyir. |
| 2. Zəif | Keyfiyyət göstəriciləri ümumi təhsilin dövlət standartları və proqramlarının tələblərindən aşağıdır. |
| 1.Çox zəif | Keyfiyyət göstəriciləri ümumi təhsilin dövlət standartları və proqramlarının tələblərindən əhəmiyyətli dərəcədə aşağıdır. |

**Cədvəl 3.1 TKTA Çərçivə sənədinin sahələri, meyarları və alt meyarları**

| Sahə | Meyar | Alt meyar |
|---|---|---|
| 1. Şagird nailiyyətləri və şəxsi inkişaf | 1.1. Şagirdlərin təlim nəticələri | 1.1.1 Şagirdlərin buraxılış imtahanlarının nəticələri (yalnız 9-cu sinif)<br>1.1.2 Son 3 ildə şagirdlərin buraxılış imtahanlarının nəticələri (yalnız 9-cu sinif)<br>1.1.3 Dərslərdə şagirdlərin bilik və bacarıqlarının səviyyəsi (təlim nəticələri)<br>1.1.4 Şagirdlərin məktəbdaxili qiymətləndirmə nəticələri |
| | 1.2. Şagirdlərin irəliləyişi | 1.2.1 Şagirdlərin dərslərdəki irəliləyişi<br>1.2.2 İş nümunələrinə əsasən şagirdlərin son dövr fəaliyyətlərindəki irəliləyişi |
| | 1.3. Şagirdlərin öyrənmə bacarıqları | 1.3.1 Şagirdlərin öyrənməyə olan marağı və öyrənmə məsuliyyəti<br>1.3.2 Şagirdlərin öyrənmə prosesində əməkdaşlığı və ünsiyyət bacarıqları<br>1.3.3 Şagirdlərin öyrəndiklərini digər fənlərlə və real həyatla əlaqələndirməsi<br>1.3.4 Şagirdlərin tənqidi, yaradıcı düşünmə və problem həlletmə bacarıqları |
| | 1.4. Şagirdlərin davranışı və nizam-intizamı | 1.4.1 Şagirdlərin davamiyyəti<br>1.4.2 Şagirdlərin ilk dərslərdəki punktuallığı<br>1.4.3 Şagirdlərin növbəti dərslərdəki punktuallığı<br>1.4.4 Şagirdlərin dərslərdəki davranışı və ətrafdakılarla qarşılıqlı münasibəti |
| 2. Öyrətmə və qiymətləndirmə | 2.1 Öyrətmənin keyfiyyəti | 2.1.1. Planlama, dərs prosesinin təşkili<br>2.1.2. Şagirdlərdə bacarıqların formalaşdırılması<br>2.1.3. Mühit və ünsiyyət |
| | 2.2 Qiymətləndirmə | 2.2.1 Formativ qiymətləndirmə<br>2.2.2 Məktəbdaxili qiymətləndirmənin (summativ) təşkili<br>2.2.3 Məktəbdaxili qiymətləndirmə nəticələrinin təhlili |
| 3. Məktəbdə dəstəkləyici mühitin yaradılması | 3.1 Şagirdlərin fiziki, mənəvi sağlamlığı və təhlükəsizliyi üçün əlverişli mühitin təmin olunması | 3.1.1 Məktəbdə sağlam mənəvi-psixoloji mühit, uşaqların müdafiəsi və təhlükəsizliyi<br>3.1.2 Məktəbdə psixoloji xidmətin keyfiyyəti<br>3.1.3 Sağlamlıq imkanları məhdud olan və xüsusi istedadlı şagirdlərin müəyyənləşdirilməsi və onlar üçün əlverişli mühitin təşkili<br>3.1.4 Məktəbin maddi-texniki və tədris bazası<br>3.1.5 Məktəbdə sağlamlığı, texniki təhlükəsizliyi və mühafizəni təmin etmək üçün görülən tədbirlər |
| | 3.2 Şagird davamiyyətinin tənzimlənməsi, punktuallıq və müsbət davranışın təşviqi | 3.2.1 Davamiyyətin tənzimlənməsi<br>3.2.2 Punktuallığın təşviqi<br>3.2.3. Müsbət davranışın təşviqi |

| | | |
|---|---|---|
| 4. Liderlik və idarəetmə | 4.1 Liderlik və idarəetmənin keyfiyyəti | 4.1.1 Planlama, hədəflər və istiqamətlər<br>4.1.2 Məktəb iqlimi və qarşılıqlı münasibətlər<br>4.1.3 Təşkilati idarəetmə<br>4.1.4. Tədrisdə keyfiyyət təminatı<br>4.1.5 Peşəkar inkişaf |
| | 4.2 Valideynlərlə ünsiyyət və əməkdaşlıq | 4.2.1 Valideynlərlə ünsiyyət<br>4.2.2 Valideynlərlə əməkdaşlıq |

## 3.2 Alt meyarların təsviri

Alt meyarların təsvirləri məktəblərə öz fəaliyyətlərinin qiymətləndirilməsində dəstək ola bilər. Onlar məktəblərə öz tədris və öyrənmə təcrübələrini qiymətləndirməkdə və onların keyfiyyətinə dair düzgün mühakimə yürütməkdə kömək edə bilər. Bu, müəllimləri öz tədrislərinin və şagirdlərə təqdim etdikləri öyrənmə təcrübələrinin effektivliyi haqqında düşünməyə vadar edir. O, məktəbdə tətbiq olunan yaxşı təcrübənin effektivliyini təsdiq etmək və məktəbin inkişaf planının əsas hissəsi olan müvafiq və məqsədyönlü hədəflərin hazırlanması üçün istinad yeridir.

Meyarların təsvirləri 5 səviyyədə verilir: *çox zəif, zəif, kafi, yaxşı, əla. Kafi* minimum gözləntini, *yaxşı* gözləntini, *əla* isə yüksək gözləntini nəzərdə tutur. *Zəif* və *çox zəif* gözləntilərə cavab vermir.

Məktəblər TKTA Çərçivə sənədini monitorinq.edu.az saytından əldə edə bilərlər.

Cədvəl 3.2-də nümunə olaraq şagirdlərin öyrənmə bacarıqları üzrə 1.3.1 alt meyarının təsvirləri verilib.

**Cədvəl 3.2 Alt meyarın təsvirləri (1.3.1)**

| **Sahə 2: Şagird nailiyyətləri və şəxsi inkişaf** | | | | |
|---|---|---|---|---|
| 1.3 Şagirdlərin öyrənmə bacarıqları | | | | |
| Əla | Yaxşı | Kafi | Zəif | Çox zəif |
| 1.3.1 Şagirdlərin öyrənməyə olan marağı və öyrənmə məsuliyyəti | | | | |
| Şagirdlər öyrənməyə çox həvəslidirlər və davamlı maraq göstərirlər. Şagirdlər müstəqil işləyirlər. Onlar güclü və zəif tərəflərini müəyyənləşdirirlər və öz fəaliyyətlərini yaxşılaşdırmaq üçün müstəqil şəkildə qərar qəbul edirlər. | Şagirdlər öyrənməyə həvəslidirlər və maraq göstərirlər. Şagirdlər adətən müstəqil işləyirlər. Onlar güclü və zəif tərəflərini müəyyənləşdirirlər və müəllimin minimal dəstəyi ilə fəaliyyətlərini təkmilləşdirməyi bacarırlar. | Şagirdlər öyrənməyə əsasən maraq göstərirlər. Şagirdlər bəzi hallarda müstəqil işləyirlər. Onlar nə dərəcədə yaxşı öyrəndiklərini əsasən anlayırlar və müəllimin dəstəyi ilə fəaliyyətlərini təkmilləşdirməyi bacarırlar. | Şagirdlərin öyrənməyə olan maraqları davamlı deyil. Tapşırıqları yerinə yetirərkən müəllimin köməyinə ehtiyac duyurlar və nadir hallarda müstəqil işləyirlər. Onlar nə öyrəndiklərini qismən anlayırlar. | Şagirdlər öyrənməyə maraq göstərmirlər. Müstəqil işləyə bilmirlər və nə öyrəndiklərini anlamırlar. |

# BÖLMƏ 4: MƏKTƏB ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

## 4.1 Giriş

Məktəbin özünü qiymətləndirməsi məlumat və ya dəlillərin sistemli toplanmasını tələb edir. Bir və ya bir neçə mənbədən əldə edilən yaxşı məlumat və ya dəlil keyfiyyətlə bağlı əsaslı mühakimə yürütməyə imkan verir.

Özünüqiymətləndirmənin dəlillərin toplanması mərhələsinin əhatə dairəsini yalnız əsas məlumatların toplanması ilə məhdudlaşdırmaq vacibdir. Həddindən artıq çox məlumat özünüqiymətləndirmə prosesində ləngiməyə və qeyri-məhsuldarlığa səbəb ola bilər.

## 4.2 Qiymətləndirmə metodları və alətləri

Məktəblər qiymətləndirilən sahədən asılı olaraq dəlil toplamaq üçün bir sıra metodlardan istifadə edə bilər. Məktəblərin artıq mövcud olan dəlillərdən istifadəsi vacibdir. Dəlillərin müxtəlif mənbələrdən toplanması və məktəb icmasına cəlb olunanların fikirlərinin öyrənilməsini təmin etmək də olduqca vacibdir. Müəyyən sahələr üzrə dəyərləndirilmə aparılarkən ən azı 3 mənbəyə istinad etmək lazımdır. Belə ki, bir mənbədən olan məlumat digər 2 mənbədə də təsdiqini tapmalıdır. Məsələn, müsahibələrdən əldə olunan nəticələri sorğu, sənədləşmə və s. kimi digər mənbələrdən olan məlumatlarla qarşılaşdırmaq olar.

Nümunə qiymətləndirmə metodlarının siyahısı Cədvəl 4.1-də verilmişdir.

**Cədvəl 4.1 Nümunə qiymətləndirmə metodları**

**Şagirdlərin təlim nəticələri ilə bağlı məlumatların təhlili**
- Buraxılış imtahan nəticələrinin təhlili
- Məktəbdaxili qiymətləndirmə nəticələrinin təhlili
- Dərslərdə şagirdlərin nümayiş etdirdikləri təlim nəticələrinin t
- əhlili
- Şagird işlərinə baxış

**Öyrətmə ilə bağlı fəaliyyətlərin təhlili**
- Dərs müşahidələri və onların təhlili
- Müəllimlər arasında müzakirələr
- Müəllim refleksiyası
- Komanda şəklində öyrətmə və onun dəyərləndirilməsi

**Məktəb icmasının rəyi**
- Şagirdlərin rəyi
- Müəllimlərin rəyi
- Valideynlərin rəyi

**Məktəbdaxili qaydaların tətbiqi ilə bağlı məlumatların təhlili**
- Məktəbdaxili nizam-intizam qaydalarının tətbiqi ilə bağlı monitorinq

- Təhlükəsizlik qaydalarının tətbiqi ilə bağlı monitorinq
- Maddi-texniki bazaya baxış
- Davamiyyət göstəricilərinin təhlili
- Davranış qaydalarının pozulma hallarının təhlili
- Rəğbətləndirmə hallarının təhlili və s.

Dəlilləri toplayarkən məktəblər məqsədə uyğun alətlərdən istifadə etməlidir. Məktəblər özləri də ehtiyaclarına uyğun monitorinq alətləri hazırlaya bilərlər. Nümunə alətlər aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 4.2 Nümunə qiymətləndirmə alətləri**

- TKTA Çərçivə sənədi
- Buraxılış imtahan nəticələrinin təhlili cədvəli
- Məktəbdaxili qiymətləndirmə nəticələrinin təhlili cədvəli
- Şagird işlərinin yoxlanılması üzrə qeydiyyat
- Müəllimin refleksiya vərəqi
- Dərs müşahidə forması
- Fənn xülasə forması
- Dərs müşahidə qeydiyyatı (excel cədvəl)
- Çeklistlər
- Psixoloqun qeydiyyatı
- Sorğular (müəllim, şagird, valideyn)
- Müsahibə sualları
- Müsahibə forması
- Fokus qrup müzakirə forması və s.

## 4.3 Dərs müşahidə forması (DMF)

DMF dərslərdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi, eyni zamanda müəllimlərin öyrətmə və qiymətləndirmə fəaliyyətlərinin dəyərləndirilməsi, ümumilikdə məktəbdə öyrənmə və öyrətmənin keyfiyyətinin dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. DMF forması müxtəlif forma və məzmunda ola bilər. DMF məktəbdə öyrənmə (1.1.3, 1.2.1, 1.3), şagirdin dərslərdəki davranışı (1.4.4), öyrətmə (2.1) və qiymətləndirmənin (2.2.1) keyfiyyətinin dəyərləndirilməsinə dair vacib olan məlumatları verir. Bu məlumat həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini müəyyən edir. DMF monitorinq.edu.az saytında yerləşdirilmişdir.

## 4.4 Dərs müşahidə qeydiyyatı (excel cədvəli)

Dərs Müşahidə Qeydiyyatı (DMQ) müşahidəçilərin dərs müşahidələri zamanı verdikləri qiymətləri qeyd etdiyi elektron cədvəldir. DMQ monitorinqin nəticələrində mərkəzi rol oynayır. Buna görə də DMQ verilən qiyməti dəstəkləmək üçün vacib məlumat mənbəyidir. DMQ hər bir fənn və bütün məktəb üçün ümumi şagirdlərin təlim nəticələri, irəliləyiş, öyrənmə bacarıqları, öyrətmə və formativ qiymətləndirmə üzrə hökmlərin verilməsində mühüm rol oynayır. DMQ müşahidəçilərdən aşağıdakılara dair qiymətləri qeyd etməyi tələb edir:

1.1.3 Dərslərdə şagirdlərin bilik, bacarıq və anlayış səviyyəsi (təlim nəticələri)

1.2.1. Şagirdlərin dərslərdəki irəliləyişi

1.3 Şagirdlərin öyrənmə bacarıqları

1.4.4 Şagirdlərin dərslərdəki davranışı

2.1 Öyrətmənin keyfiyyəti

2.2.1 Formativ iymətləndirmə

**Cədvəl 4.3 Dərs müşahidə qeydiyyatı cədvəli**

| A | B | C | D | E | F | G | H | I | J | K | L |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Müşahidə olunan dərs | | | | | | | Əsas meyar | | |
| S.S | Müşahidəçi | Müşahidə Vərəqi (MV)no. | qrup | Müəllim | Fənn | Sinif | Şagird sayı | Gecikən şagird sayı | 1.4.4 | 2.1 | 2.2.1 |
| 1 | Fərqanə Məmmədova | FM01 | 4a | Gülnarə Abbasova | AZ | 4 | 18 | 2 | 4 | 3 | 3 |
| 2 | Fərqanə Məmmədova | FM02 | 3b | Esmira Məmmədova | AZ | 3 | 15 | | 3 | 3 | 3 |
| 3 | Pərvanə Əliyeva | PƏ01 | 5a | Nərgiz Nağıyeva | AZ | 5 | 15 | | 3 | 3 | 3 |
| 4 | Pərvanə Əliyeva | PƏ02 | 4c | Ülkər Rəhimova | İNG | 4 | 20 | | 3 | 3 | 3 |
| 5 | Pərvanə Əliyeva | PƏ03 | 5b | Aytən Rəcəbova | İNG | 5 | 20 | | 3 | 3 | 3 |

B sütununda müşahidəçinin adı və soyadı qeyd edilir, C sütununda müşahidəçinin ad və soyadının baş hərfləri, eyni zamanda müşahidə etdiyi dərsin sırası ilə nömrəsini qeyd edir (01, 02 və s.). E sütununda dərsi müşahidə edilən müəllimin adı və soyadı qeyd edilir. F sütununda müşahidə edilən fənlər qeyd olunur (Riy- riyaziyyat, TE-təbiət elmləri - Fizika, kimya, biologiya, Az- Azərb dili, İng- ingilis dili, DF- digər fənləri, DDAZ-Azərbaycan dili dövlət dili kimi, Ru-rus dilini bildirir) Digər sütunlarda (J-O) şagirdlərin dərslərdəki davranışı (1.1.4), şagirdlərin dərsdəki təlim nəticələri (1.1.3), şagirdlərin dərslərdəki irəliləyişləri (1.2.1), şagirdlərin öyrənmə bacarıqları (1.3), öyrətmənin keyfiyyəti (2.1) və formative qiymətləndirmə (2.2.1) üzrə qiymətlər yazılır.

DMQ müşahidəçilərin dərs müşahidələri zamanı müşahidə etdikləri 1.1.4, 1.1.3, 1.2.1, 1.3, 2.1, 2.2.1 üzrə qiymətləri toplayır. DMQ daha sonra hər bir meyar və məktəb üçün ümumi qiymətləri bildirmək üçün iki mərhələli hesablama prosesi aparır.

**Mərhələ 1** - DMQ müşahidəçilər tərəfindən verilən qiymətləri hesablayır və hər bir səviyyədə verilən qiymətlərin sayını təqdim edir, məsələn, hər bir meyar üçün neçə dəfə "əla" verildiyini, neçə dəfə "yaxşı" qiymətləndirildiyini və s. Bunu məktəb üçün fənn, təhsil səviyyələri və ümumi olmaqla təqdim edir.

**Mərhələ 2** – DMQ hər bir meyar üçün ümumi nəticələri beş qiymətləndirmə səviyyəsi sözündən (əla, yaxşı, kafi, zəif, çox zəif) biri kimi təqdim edir. Bunu hər bir fənn, təhsil səviyyələri və ümumi məktəb üçün edir. DMQ bunu giriş məlumatlarının beş qiymətləndirmə səviyyəsindən birinə cavab verib-vermədiyini yoxlayan şərti düsturlar tətbiq etməklə həyata keçirir. DMQ beş qiymətləndirmə səviyyəsindən hansının məlumatlara uyğun olduğunu yoxlamaq üçün aşağıdakı ardıcıllığı izləyir və sonra müvafiq qiyməti müəyyən edir. DMQ-da qiymətin hesablanması Cədvəl 4.4-də verilmişdir:

1. DMQ müvafiq alt meyar üzrə qiymətlərin (məsələn, 1.1.3 Şagirdlərin təlim nəticələri) 70%-i və ya daha çoxu həmin meyarla bağlı mühakimələrin "əla" olduğu halda, ***əla*** qiymətini müəyyən edir.
2. Qiymətlərin 50%-i və ya daha çoxu *yaxşı* (və ya daha yuxarı), 20% və daha az *zəif* və ya *çox zəif* olarsa, DMQ ***yaxşı*** qiymətini müəyyən edir. Qiymətin 10% və ya daha azı *çox zəif* ola bilər.
3. Qiymətlərin 50%-i və ya daha çoxu *"kafi"* (və ya daha yuxarı), 30% və ya daha azı *çox zəif* olarsa, DMQ ***kafi*** qiymətini müəyyən edir.
4. Qiymətlərin 50%-dən azı *çox zəif* olarsa, DMQ ***zəif*** qiymətini müəyyən edir.
5. Qiymətlərin 50%-dən daha çoxu *çox zəif* olarsa, DMQ ***çox zəif*** qiymətini müəyyən edir.

**Cədvəl 4.4 DMQ-da qiymətin hesablanması**

<table>
<tr><th>Əla</th><th>Yaxşı</th><th>Kafi</th><th>Zəif</th><th>Çox zəif</th><th>Yekun nəticə</th></tr>
<tr><td>70% və daha çox</td><td></td><td></td><td></td><td>0%</td><td>əla</td></tr>
<tr><td colspan="2" rowspan="2">İkisi birlikdə 50%-dən çox</td><td rowspan="2"></td><td></td><td>10% və daha az</td><td rowspan="2">yaxşı</td></tr>
<tr><td colspan="2">20% və daha az</td></tr>
<tr><td colspan="3">Üçü birlikdə 50%-dən çox</td><td></td><td>30% və daha az</td><td>kafi</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td>50%-dən az</td><td>zəif</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td>50% və daha çox</td><td>çox zəif</td></tr>
</table>

**Cədvəl 4.5 İngilis dili fənni üçün təlim nəticəsinin hesablamasına dair nümunə**

fx İngilis dili

| A | B | C | D | E | F | G | H | I |
|---|---|---|---|---|---|---|---|---|
| İngilis dili | Təlim nəticələri | 1.1.3 | 5 | 4 | 3 | 2 | 1 | |
| | Təhsil səviyyələri | Dərslərin sayı | Ə % | Y % | K % | Z % | ÇZ % | Qiymət |
| | İbtidai | 0 | | | | | | - |
| | Ümumi orta | 11 | 0% | 0% | 9% | 55% | 36% | Zəif |
| | Tam orta | 0 | | | | | | - |
| | Məktəb | 11 | 0% | 0% | 9% | 55% | 36% | Zəif |

Məsələn, DMQ idarə paneli ingilis dili üçün 1.1.3-ə dair qiymətlərin bəzisinin (36%) ən azı *zəif* olduğunu, lakin çoxunun (55%) *zəif* və çox az bir hissəsinin (9%) *kafi* olduğunu hesablayırsa, DMQ ümumi qiymətin ***zəif*** olduğunu bildirəcək. DMQ, müşahidəçilərin əl ilə hesablamalarını əvəz edir və əl ilə hesablama səhvləri ehtimalını aradan qaldırır.

DMQ fənn və bütün məktəb səviyyəsində hesablamalar haqqında hesabat vermək üçün 'kontrol panelindən' istifadə edir. Hesabatlar qiymət növünə görə qruplaşdırılır. Cədvəl 4.6-dakı nümunə 1.1.3 (dərslərdə təlim nəticələri) və 1.2.1 (dərslərdə irəliləyiş) üçün hər bir fənn üzrə və bütün məktəb qiymətlərini göstərir. Məsələn, Azərbaycan dili, ingilis dili, riyaziyyat və digər fənlər üzrə 19 dərs müşahidə edilmişdir. Şagirdlərin Azərbaycan dili dərslərində nümayiş etdirdikləri təlim nəticələri ***kafi***, ingilis dili üzrə ***zəif***, riyaziyyat və digər fənlərdə isə ***çox zəifdir.*** Deməli, məktəbin 1.1.3 üzrə güclü tərəfi Azərbaycan dili, inkişafa ehtiyacı olan tərəfi isə şagirdlərin ingilis dili, riyaziyyat və digər fənlər üzrə təlim nəticələridir.

**Qeyd:** *Burada göstərilən dərs müşahidə sayı şərtidir. Say hər bir məktəbin kontekstinə uyğun olaraq fərqli ola bilər. Özünüqiymətləndirmə prosesində bütün siniflər və fənlər üzrə dərslər müşahidə edilməlidir.*

**Cədvəl 4.6 Dərs müşahidə qeydiyyatı cədvəli (1.1.3 və 1.2.1)**

| A | B | C | D | E | F | G | H | I | J | K |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1.3 | Azərbaycan dili | | İngilis dili | | Riyaziyyat | | Digər fənlər | | Məktəb | |
| Təhsil səviyyələri | | | | | | | | | | |
| İbtidai | 13 | Kafi | 0 | - | 6 | Zəif | 0 | - | 19 | Zəif |
| Ümumi orta | 6 | Kafi | 11 | Zəif | 8 | Çox zəif | 8 | Çox zəif | 35 | Zəif |
| Tam orta | 0 | - | 0 | - | 0 | - | 0 | - | 0 | - |
| Məktəb | 19 | Kafi | 11 | Zəif | 14 | Çox zəif | 8 | Çox zəif | 54 | Zəif |
| 1.2.1 | Azərbaycan dili | | İngilis dili | | Riyaziyyat | | Digər fənlər | | Məktəb | |
| Təhsil səviyyələri | | | | | | | | | | |
| İbtidai | 13 | Kafi | 0 | - | 6 | Zəif | 0 | - | 19 | Zəif |
| Ümumi orta | 6 | Kafi | 11 | Zəif | 8 | Çox zəif | 8 | Çox zəif | 35 | Zəif |
| Tam orta | 0 | - | 0 | - | 0 | - | 0 | - | 0 | - |
| Məktəb | 19 | Kafi | 11 | Zəif | 14 | Çox zəif | 8 | Çox zəif | 54 | Zəif |

## 4.5 9-cu sinif buraxılış imtahan nəticələrinin təhlil cədvəli

Bu alət excel cədvəlidir və şagirdlərin son tədris ilində və son 3 il ərzində 9-cu sinif buraxılış imtahanlarında əldə etdikləri nəticələri qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Cədvəl hesablamanı TKTA Çərçivə sənədinin 1.1.1 və 1.1.2 alt meyarlarındakı təsvirlərə uyğun aparır. (bax TKTA Çərçivə sənədi) Cədvəlin sarı xanalarında heç bir qeyd aparılmır. Elektron cədvələ buraxılış imtahanının nəticələrinə (yalnız 9-cu sinif) uyğun olaraq *əla*, *yaxşı*, *kafi* və *qeyri kafi* nəticə göstərən şagirdlərin sayını daxil etdikdən sonra avtomatik hesablama aparılır. Cədvəl 3 fənn, məktəb və tədris illəri üzrə çərçivə sənədinə uyğun olaraq 5 səviyyədə qiyməti hesablayır.

**Cədvəl 4.7 9-cu sinif buraxılış imtahan nəticələrinin təhlilinə dair nümunə**

| | Azərbaycan dili | | | | | Riyaziyyat | | | | | İngilis dili | | | | | Məktəb üzrə | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə |
| 2020-2021 | 2 | 30 | 46 | 33 | Yaxşı | 10 | 39 | 32 | 30 | Yaxşı | 19 | 32 | 31 | 29 | Yaxşı | 31 | 101 | 109 | 92 | Yaxşı |
| | 2% | 27% | 41% | 30% | | 9% | 35% | 29% | 27% | | 17% | 29% | 28% | 26% | | 9% | 30% | 33% | 28% | |
| 2021-2022 | 1 | 25 | 32 | 24 | Yaxşı | 12 | 33 | 20 | 17 | Kafi | 13 | 30 | 25 | 14 | Kafi | 26 | 88 | 77 | 55 | Yaxşı |
| | 1% | 30% | 39% | 29% | | 15% | 40% | 24% | 21% | | 16% | 37% | 30% | 17% | | 11% | 36% | 31% | 22% | |
| 2022-2023 (1.1.1) | 5 | 40 | 50 | 12 | Yaxşı | 23 | 49 | 26 | 9 | Kafi | 18 | 37 | 35 | 17 | Kafi | 46 | 126 | 111 | 38 | Kafi |
| | 5% | 37% | 47% | 11% | | 21% | 46% | 24% | 8% | | 17% | 35% | 33% | 16% | | 14% | 39% | 35% | 12% | |
| Son üç il üzrə 1.1.2 | 8 | 95 | 128 | 69 | Yaxşı | 45 | 121 | 78 | 56 | Kafi | 50 | 99 | 91 | 60 | Yaxşı | 103 | 315 | 297 | 185 | Yaxşı |
| | 3% | 32% | 43% | 23% | | 15% | 40% | 26% | 19% | | 17% | 33% | 30% | 20% | | 11% | 35% | 33% | 21% | |

Cədvəl 4.7-dəki datanı aşağıdakı şəkildə təqdim etmək olar:

### *1.1.1 Şagirdlərin buraxılış imtahanlarının nəticələri*

*2022-2023-ci tədris ilində 9-cu sinif buraxılış imtahanlarının nəticələrinə görə şagirdlərin təlim nəticələri* ***kafi*** *qiymətləndirilmişdir.*

- ***Tədris dili*** *üzrə şagirdlərin təlim nəticələri* ***yaxşıdır*** *(95% müvəffəq nəticə: 37% kafi, 47% yaxşı, 11% əla).*
- ***Riyaziyyat*** *üzrə şagirdlərin təlim nəticələri* ***kafidir*** *(79% müvəffəq nəticə: 47% kafi, 24% yaxşı, 8% əla ).*
- ***Xarici dil*** *üzrə şagirdlərin təlim nəticələri* ***kafidir*** *(83% müvəffəq nəticə: 34% kafi, 33% yaxşı, 16% əla).*

### *1.1.2 Son 3 ildə şagirdlərin buraxılış imtahanlarının nəticələri*

*Son 3 il ərzində 9-cu sinif buraxılış imtahanlarının nəticələrinə görə şagirdlərin təlim nəticələri* ***yaxşı*** *qiymətləndirilmişdir.*

- ***Tədris dili*** *üzrə şagirdlərin təlim nəticələri son 3 ildə* ***yaxşı*** *olaraq qalmışdır.*

- ***Riyaziyyat** üzrə şagirdlərin təlim nəticələri 2020-2021-ci tədris ilində **yaxşı**, 2021-2022 və 2022-2023-cü tədris illərində **kafi** olmuşdur.*
- ***Xarici dil** üzrə şagirdlərin təlim nəticələri 2020-2021-ci tədris ilində **yaxşı,** 2021-2022 və 2022-2023-cü tədris illərində isə **kafi** olmuşdur.*

## 4.6 Məktəbdaxili qiymətləndirmə nəticələrinin təhlil cədvəli

Bu alət Excel cədvəlidir və şagirdlərin son tədris ili üzrə illik qiymətləndirmə nəticələrini qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Cədvəl hesablamanı TKTA Çərçivə sənədinin 1.1.4 alt meyarındakı təsvirlərə uyğun aparır. Cədvəlin sarı xanalarında heç bir qeyd aparılmır. Elektron cədvələ illik qiymətləndirmə nəticələrinə uyğun olaraq əla, yaxşı, kafi və qeyri kafi nəticə göstərən şagirdlərin sayını daxil etdikdən sonra avtomatik hesablama aparılır. Cədvəl fənlər, siniflər, məktəb və təhsil səviyyələri üzrə çərçivə sənədinə uyğun olaraq 5 səviyyədə qiyməti hesablayır (bax Cədvəl 4.8). Məktəblər BSQ, KSQ nəticələrini qiymətləndirmək üçün bənzər excel cədvəli hazırlaya bilərlər. Excel cədvəl monitorinq.edu.az saytında yerləşdirilmişdir.

**Cədvəl 4.8 İllik qiymətləndirmə nəticələrinin təhlilinə dair nümunə**

| | Azərbaycan dili (tədris dili) | | | | | Rus dili (tədirs dili) | | | | | Riyaziyyat | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Siniflər | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə |
| 2 | | 43 | 81 | 78 | Yaxşı | | | | | | | 63 | 62 | 79 | Yaxşı |
| | 0% | 21% | 40% | 39% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 31% | 30% | 39% | |
| 3 | | 8 | 69 | 94 | əla | | | | | | | 16 | 66 | 100 | əla |
| | 0% | 5% | 40% | 55% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 9% | 36% | 55% | |
| 4 | | 18 | 58 | 38 | Yaxşı | | | | | | | 58 | 42 | 44 | Yaxşı |
| | 0% | 16% | 51% | 33% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 40% | 29% | 31% | |
| İbtidai | 0 | 69 | 208 | 210 | Yaxşı | 0 | 0 | 0 | 0 | | 0 | 137 | 170 | 223 | Yaxşı |
| | 0% | 14% | 43% | 43% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 26% | 32% | 42% | |
| 5 | | 40 | 56 | 19 | Yaxşı | | 21 | 58 | 34 | Yaxşı | 5 | 35 | 46 | 30 | Yaxşı |
| | 0% | 35% | 49% | 17% | | 0% | 19% | 51% | 30% | | 4% | 30% | 40% | 26% | |
| 6 | 10 | 112 | 124 | 34 | Yaxşı | 4 | 76 | 108 | 70 | Yaxşı | 34 | 119 | 105 | 22 | Kafi |
| | 4% | 40% | 44% | 12% | | 2% | 29% | 42% | 27% | | 12% | 43% | 38% | 8% | |
| 7 | 2 | 43 | 37 | 40 | Yaxşı | | 35 | 47 | 42 | Yaxşı | 7 | 34 | 58 | 25 | Yaxşı |
| | 2% | 35% | 30% | 33% | | 0% | 28% | 38% | 34% | | 6% | 27% | 47% | 20% | |
| 8 | 4 | 26 | 51 | 15 | Yaxşı | | 39 | 40 | 20 | Yaxşı | 7 | 38 | 39 | 14 | Yaxşı |
| | 4% | 27% | 53% | 16% | | 0% | 39% | 40% | 20% | | 7% | 39% | 40% | 14% | |
| 9 | 1 | 103 | 234 | 94 | Yaxşı | | 13 | 126 | 78 | Yaxşı | 7 | 150 | 177 | 73 | Yaxşı |
| | 0% | 24% | 54% | 22% | | 0% | 6% | 58% | 36% | | 2% | 37% | 43% | 18% | |
| Ümumi orta | 16 | 221 | 268 | 108 | Yaxşı | 4 | 171 | 253 | 166 | Yaxşı | 53 | 226 | 248 | 91 | Yaxşı |
| | 3% | 36% | 44% | 18% | | 1% | 29% | 43% | 28% | | 9% | 37% | 40% | 15% | |
| 10 | | 6 | 45 | 18 | Yaxşı | | 9 | 8 | 12 | Yaxşı | | 12 | 52 | 23 | Yaxşı |
| | 0% | 9% | 65% | 26% | | 0% | 31% | 28% | 41% | | 0% | 14% | 60% | 26% | |
| 11 | | 26 | 121 | 125 | Yaxşı | | 1 | 7 | 13 | əla | | 9 | 35 | 42 | Yaxşı |
| | 0% | 10% | 44% | 46% | | 0% | 5% | 33% | 62% | | 0% | 10% | 41% | 49% | |
| Tam orta | 0 | 32 | 166 | 143 | Yaxşı | 0 | 10 | 15 | 25 | əla | 0 | 21 | 87 | 65 | Yaxşı |
| | 0% | 9% | 49% | 42% | | 0% | 20% | 30% | 50% | | 0% | 12% | 50% | 38% | |
| | 16 | 322 | 642 | 461 | Yaxşı | 4 | 181 | 268 | 191 | Yaxşı | 53 | 384 | 505 | 379 | Yaxşı |
| Məktəb | 1% | 22% | 45% | 32% | | 1% | 28% | 42% | 30% | | 4% | 29% | 38% | 29% | |

| | İngilis dili | | | | | Digər fənlər (fizika kimya biologiya) | | | | | Digər fənlər (tarix, coğrafiya) | | | | | Məktəb üzrə | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Siniflər | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə | q-kafi | kafi | yaxşı | əla | Nəticə |
| 2 | | 51 | 54 | 91 | Yaxşı | | | | | | | | | | | 0 | 157 | 197 | 248 | Yaxşı |
| | 0% | 26% | 28% | 46% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 26% | 33% | 41% | |
| 3 | | 19 | 61 | 102 | əla | | | | | | | | | | | 0 | 43 | 196 | 296 | əla |
| | 0% | 10% | 34% | 56% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 8% | 37% | 55% | |
| 4 | | 36 | 41 | 47 | Yaxşı | | | | | | | | | | | 0 | 112 | 141 | 129 | Yaxşı |
| | 0% | 29% | 33% | 38% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 29% | 37% | 34% | |
| İbtidai | 0 | 106 | 156 | 240 | Yaxşı | 0 | 0 | 0 | 0 | | 0 | 0 | 0 | 0 | | 0 | 312 | 534 | 673 | Yaxşı |
| | 0% | 21% | 31% | 48% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 21% | 35% | 44% | |
| 5 | | 32 | 44 | 56 | Yaxşı | | | | | | | 23 | 58 | 33 | Yaxşı | 5 | 151 | 262 | 172 | Yaxşı |
| | 0% | 24% | 33% | 42% | | #DIV/0! | #DIV/0! | #DIV/0! | #DIV/0! | | 0% | 20% | 51% | 29% | | 1% | 26% | 44% | 29% | |
| 6 | 26 | 104 | 84 | 73 | Yaxşı | 4 | 189 | 211 | 123 | Yaxşı | 2 | 371 | 311 | 66 | Yaxşı | 80 | 971 | 943 | 388 | Yaxşı |
| | 9% | 36% | 29% | 25% | | 1% | 36% | 40% | 23% | | 0% | 49% | 41% | 9% | | 3% | 41% | 40% | 16% | |
| 7 | 3 | 35 | 40 | 45 | Yaxşı | 2 | 148 | 125 | 97 | Yaxşı | 45 | 136 | 136 | 94 | Yaxşı | 59 | 431 | 443 | 343 | Yaxşı |
| | 2% | 28% | 33% | 37% | | 1% | 40% | 34% | 26% | | 11% | 33% | 33% | 23% | | 5% | 34% | 35% | 27% | |
| 8 | | 31 | 41 | 26 | Yaxşı | 2 | 62 | 104 | 37 | Yaxşı | | 102 | 130 | 43 | Yaxşı | 13 | 298 | 405 | 155 | Yaxşı |
| | 0% | 32% | 42% | 27% | | 1% | 30% | 51% | 18% | | 0% | 37% | 47% | 16% | | 1% | 34% | 46% | 18% | |
| 9 | 1 | 118 | 129 | 99 | Yaxşı | 3 | 189 | 242 | 141 | Yaxşı | | 201 | 384 | 167 | Yaxşı | 12 | 774 | 1292 | 652 | Yaxşı |
| | 0% | 34% | 37% | 29% | | 1% | 33% | 42% | 25% | | 0% | 27% | 51% | 22% | | 0% | 28% | 47% | 24% | |
| Ümumi orta | 29 | 202 | 209 | 200 | Yaxşı | 8 | 399 | 440 | 257 | Yaxşı | 47 | 632 | 635 | 236 | Yaxşı | 157 | 1851 | 2053 | 1058 | Yaxşı |
| | 5% | 32% | 33% | 31% | | 1% | 36% | 40% | 23% | | 3% | 41% | 41% | 15% | | 3% | 36% | 40% | 21% | |
| 10 | | 30 | 35 | 17 | Yaxşı | | 19 | 74 | 57 | Yaxşı | | 63 | 189 | 207 | Yaxşı | 0 | 139 | 403 | 334 | Yaxşı |
| | 0% | 37% | 43% | 21% | | 0% | 13% | 49% | 38% | | 0% | 14% | 41% | 45% | | 0% | 16% | 46% | 38% | |
| 11 | | 21 | 61 | 111 | əla | | 40 | 56 | 192 | əla | | 5 | 51 | 161 | əla | 0 | 102 | 331 | 644 | əla |
| | 0% | 11% | 32% | 58% | | 0% | 14% | 19% | 67% | | 0% | 2% | 24% | 74% | | 0% | 9% | 31% | 60% | |
| Tam orta | 0 | 51 | 96 | 128 | Yaxşı | 0 | 59 | 130 | 249 | əla | 0 | 68 | 240 | 368 | əla | 0 | 241 | 734 | 978 | əla |
| | 0% | 19% | 35% | 47% | | 0% | 13% | 30% | 57% | | 0% | 10% | 36% | 54% | | 0% | 12% | 38% | 50% | |
| | 29 | 359 | 461 | 568 | Yaxşı | 8 | 458 | 570 | 506 | Yaxşı | 47 | 700 | 875 | 604 | Yaxşı | 157 | 2404 | 3321 | 2709 | Yaxşı |
| Məktəb | 2% | 25% | 33% | 40% | | 1% | 30% | 37% | 33% | | 2% | 31% | 39% | 27% | | 2% | 28% | 39% | 32% | |

## 4.7 Fənn xülasə forması (FXF)

Hər bir fənn üzrə müşahidə olunan bütün dərsləri ümumiləşdirmək üçün nəzərdə tutulub. FX monitorinq prosesinin rəsmi qeydləridir, dəyərləndirici, aydın və qərar vermə xüsusiyyətinə malik olmalıdır. FXF-nın əsas funksiyası hər bir fənn üzrə güclü və inkişafa ehtiyacı olan tərəfləri müəyyənləşdirməkdir. FX forması monitorinq.edu.az saytında yerləşdirilmişdir.

## 4.8 Ümumi müşahidə forması (ÜMF)

Məktəbin ümumi müşahidələrindən dəlil toplamaq üçün nəzərdə tutulub. ÜMF monitorinq prosesinin rəsmi qeydləridir. Onlar qısa, aydın və dəyərləndirici olmalı, nəzərdən keçirilən və müşahidə edilən əsas hadisələri vurğulamalıdır. Məsələn, şagird davranışı, qarşılıqlı münasibətlər, məktəb mühiti ilə bağlı müşahidələrdən əldə edilən məlumatı bu formaya yazmaq olar. ÜMF monitorinq.edu.az saytında yerləşdirilmişdir.

## 4.9 Fokus qrup müzakirələri

Fokus qrup müzakirələri anket sorğulardan və ya fərdi müsahibələr kimi digər məlumat toplama vasitələrindən yaranan sualları daha dərindən araşdırmaq üçün istifadə oluna bilər. Fokus qrup məlumat toplama vasitəsidir ki, burada seçilmiş iştirakçılar, məsələn, bir qrup müəllimlər, şagirdlər və ya valideynlər spesifik bir məsələni müzakirə etmək üçün toplaşırlar. Məsələn, valideyn və şagirdlərlə aparılan sorğu və dərs müşahidə nəticələri əsasında məktəbdə müəllim-şagird münasibətləri ilə bağlı bir sıra məsələləri dərindən araşdırmaq üçün bir qrup müəllimlə müzakirə aparıla bilər. Fokus-qrup müzakirələrində əldə edilən məlumatların çoxu keyfiyyət xarakteri daşıyır.

## 4.10 Müsahibələr

Müsahibə məktəb icmasının üzvlərindən məktəbin işi haqqında məlumat toplamaq üçün praktik üsullardan biridir. Müsahibələr öz formatlarına görə nisbətən açıq olduğundan, onlar geniş və zəngin məlumat verə bilər. Müsahibələri aparmaq üçün müsahibə sualları hazırlanmalıdır və həmin suallar məktəbin müəyyən sahəsi üzrə fəaliyyətini dəyərləndirməyə imkan verməlidir. Məsələn, psixoloji xidmətin keyfiyyətini dəyərləndirmək üçün psixoloqun fəaliyyətini öyrənməyə xidmət edən suallar tərtib etmək olar.

## 4.11 Anket sorğular

Anket sorğular hərtərəfli məktəb özünüqiymətləndirmə alətidir. Onlar müəllimlər, şagirdlər, valideynlər və idarə heyəti də daxil olmaqla bir sıra insanlardan məktəbin fəaliyyəti haqqında məlumat toplamaq imkanı verir. Sorğular aşağıdakı məlumatları əldə etmək üçün istifadə edilə bilər:

• Faktiki məlumat (məsələn, dərslərdə İKT-dən istifadə tezliyi, valideynlərə çatdırılan qiymətləndirmə məlumatının növü)

• Məktəbin fəaliyyəti haqqında müəllim, şagird, valideynlərin düşüncələri, irad və təklifləri

• Maraqlı tərəflərin məktəbin müxtəlif istiqamətlərdə fəaliyyətindən məmnunluq səviyyələri haqqında məlumat

# BÖLMƏ 5: MƏKTƏB ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ HESABATI

## 5.1 Məktəb özünüqiymətləndirmə hesabatı

Özünüqiymətləndirmə prosesinin 4-cü mərhələsində hesabat yazılır. Özünüqiymətləndirmə hesabatının aşağıdakı funksiyaları vardır:

- Məktəbin güclü və inkişafa ehtiyacı olan tərəflərini müəyyənləşdirir.
- Müəllimlərin öyrətmə və öyrənmə prosesini nə dərəcədə effektiv təşkil etdiklərini anlamağa yardım edir.
- Müəllimləri öyrənmə və öyrətmənin dinamikasına nəzarət edə bilmələri üçün məlumat bazası (data) ilə təmin edir.
- Şagird nailiyyətlərini yaxşılaşdırmaq üçün məktəbin nəyə ehtiyacı olduğunu anlamağa yardım edir.
- Məktəbin hədəflərini müəyyənləşdirməyə və fəaliyyətini səmərəli planlaşdırmağa yardım edir.
- Məktəbin inkişaf planı vasitəsilə tədrisin inkişafını təmin edir.

Özünüqiymətləndirmə hesabatını yazarkən məktəblər aşağıdakıları nəzərə almalıdır:

- Təqdim olunan dəlillər (məlumatlar) ətraflı və tutarlıdırmı?  Eyni zamanda, müxtəlif etibarlı mənbələrə əsaslanırmı?
- Verilən qərarlar(qiymətlər) dəlillərə əsaslanırmı?
- Keyfiyyət bildirən söz və ifadələrdən istifadə olunubmu?
- Təlim nəticələri ilə bağlı məlumatlar çərçivə sənədində müəyyən olunmuş meyarlara əsaslanırmı?
- Səbəb və nəticə arasında əsaslandırılmış əlaqə varmı?
- Bütün meyarlar/alt-meyarlar və standartlar üçün dəlillər və qiymətləndirmələr təqdim edilirmi?
- Güclü tərəflər və inkişafa ehtiyacı olan tərəflər qiymətləndirmənin nəticələrinə uyğundurmu?

Hesabat TKTA Çərçivə sənədinin meyarları əsasında yazılmalıdır. Hesabat forması monitorinq.edu.az saytında yerləşdirilmişdir.

## 5.2 Məktəbin inkişaf planı

Özünüqiymətləndirmə hesabatı əsasında məktəbin inkişaf planı (MİP) yazılmalıdır. O, məktəbin nail olmaq istədiyi təkmilləşməni və bu təkmilləşməyə nail olmaq üçün görüləcək tədbirləri təsvir etməlidir. Planda özünüqiymətləndirmə nəticələrinə əsaslanaraq məktəbin müxtəlif sahələri üzrə

daha da inkişaf etməsi üçün hədəflər müəyyən edilir. Həmin hədəflərə çatmaq üçün lazım olan tədbirlər müəyyənləşdirilir. TKTA çərçivə sənədinin meyarlarından hədəflərin müəyyən edilməsində və sonradan hədəflərin yerinə yetirilib-yetirilmədiyini dəyərləndirmək üçün istifadə olunmalıdır.

Hədəflər şagirdlərin nailiyyətlərinin istənilən aspekti ilə, o cümlədən onların bilikləri, bacarıqları və davranışları ilə bağlı ola bilər. Hədəflər məktəb tərəfindən həyata keçirilən özünüqiymətləndirmə prosesindən əldə edilən müvafiq ilkin məlumatlarla əlaqələndirilməlidir ki, irəliləyişi effektiv şəkildə ölçmək mümkün olsun.

Planda və görüləcək işlərə məsul şəxslər haqqında məlumat da öz əksini tapmalıdır.

MİP sənədində aşağıdakılar olmalıdır:

- məktəbin 4 sahəsi üzrə inkişaf hədəfləri
- hədəflərə çatmaq üçün icra olunacaq fəaliyyətlər
- hədəflər və fəaliyyətlər üçün nəzərdə tutulmuş son tarix
- icra olanacaq fəaliyyətlərə görə təyin olunan məsul şəxslər
- fəaliyyətlərin icrasına və irəliləyişə nəzarət edən məsul şəxslər
- valideynlərin iştirakı ilə icra olunacaq fəaliyyətlər
- hədəflərə nail olmaq üçün vaxt müddəti

MİP forması monitorinq.edu.az saytında yerləşdirilmişdir.